# Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü üzrə Komissiya

31 dekabr 2008-ci il tarixində başa çatan üzrə
**Müstəqil Mühasiblərin Rəyi**

**AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARININ HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ ÜZRƏ KOMİSSİYA**

## MÜNDƏRİCAT

**Səhifə**


| | |
|---|---|
| MÜSTƏQİL MÜHASİBLƏRİN RƏYİ | 1-7 |
| HÖKUMƏT VƏ HASİLAT ŞİRKƏTLƏRİNİN HESABATLARININ XÜLASƏSİ | 2 |
| ƏLAVƏ 1. AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARININ HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ ÜZRƏ KOMİSSİYANIN BƏYANNAMƏSİ | 8 |
| ƏLAVƏ 2. MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN, ANLAŞMA MEMORANDUMUNA ÜZV OLAN VƏ ÜZV OLMAYAN ŞİRKƏTLƏRİN SİYAHISI | 9 |
| ƏLAVƏ 3. ANLAŞMA MEMORANDUMUNA TƏRƏF OLAN QEYRİ-HÖKUMƏT TƏŞKİLATLARININ VƏ FİZİKİ ŞƏXSLƏRİN SİYAHISI | 10-12 |

Deloitte.

Deloitte & Touche MMC
Lәndmark
Nizami küç. 96
Bakı, AZ1010
Azәrbaycan

Tel: +994 (12) 598 2970
Faks: +994 (12) 598 2975
www.deloitte.az

**MÜSTƏQİL MÜHASİBLƏRİN RƏYİ**

Azərbaycan Respublikasının Mineral Ehtiyatlarının Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsü ("MHŞT") üzrə Komissiyaya:

Biz, Əlavə 1-də qeyd olunan Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyasının (bundan sonra "Komissiya") Bəyannaməsinin yoxlamasını həyata keçirərək müəyyən etdik ki, 31 dekabr 2008-ci il tarixində başa çatan il ərzində Azərbaycan Respublikası Hökumətinin (bundan sonra "Hökumət") mineral ehtiyatların hasilatı ilə məşğul olan şirkətlərdən (bundan sonra "Şirkətlər") aldığı ödənişlərin/daxilolmaların cədvəli MHŞT üzrə Komissiya, Əlavə 2-də qeyd olunan yerli və xarici Şirkətlər və Əlavə 3-də göstərilən qeyri-hökumət təşkilatları ("QHT") arasında 24 noyabr 2004-cü il tarixdə imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna ("AM") uyğun olaraq hazırlanmışdır. Azərbaycan Respublikasının MHŞT üzrə Komissiyası Bəyannaməyə görə cavabdehdir. Bizim məsuliyyətimiz apardığımız yoxlamaya əsaslanaraq Komissiyanın Bəyannaməsinə dair rəy bildirməkdən ibarətdir.

Növbəti paraqrafda qeyd olunanlar istisna olmaqla, biz yoxlamamızı Əminlik Yoxlamaları Üzrə Beynəlxalq Standarta uyğun olaraq həyata keçirdik və müvafiq olaraq Komissiyanın Bəyannaməsini təsdiq edən sübutların test üsulu ilə yoxlamasını və müəyyən hallarda zəruri hesab etdiyimiz digər prosedurları yerinə yetirdik. Hesab edirik ki, apardığımız yoxlama nəticəsində rəy vermək üçün kifayət qədər əsas toplamışıq.

Komissiyanın Bəyannaməsini yoxlamaq üçün əldə etdiyimiz məlumatlar Qarşılıqlı Anlaşma Memorandumuna tərəf olan Şirkətlərin təqdim etdiyi yazılı məlumatlardan və Komissiyanın təqdim etdiyi Hökumət tərəfindən alınmış ödənişlərə/daxilolmalara dair təfsilatlı məlumatlardan ibarət idi. Yoxlamamız Hökumət tərəfindən qəbul edilmiş bütün ödənişlərin/daxilolmaların və Şirkətlər tərəfindən edilmiş bütün ödənişlərin/daxilolmaların yoxlanılmasını əhatə etmirdi. Əgər Şirkətlər tərəfindən ödənişlər/daxilolmalar həyata keçirilmişdirsə, lakin həm Hökumətin, həm də Şirkətlərin təqdim etdiyi yazılı məlumatlarda öz əksini tapmamışdırsa, bu halda bizim işimiz onları aşkar etmək üçün kifayət olmazdı.

**İcra olunmuş işlərin icmalı**

Komissiyanın Bəyannaməsini (Əlavə 1) yoxlamaq üçün biz 31 dekabr 2008-ci il tarixində başa çatan il ərzində Hökumət tərəfindən qəbul edilmiş ödənişlər/daxilolmalar cədvəlini (bundan sonra "Hökumətin cədvəli") Əlavə 2-də göstərilən AM-ə tərəf olan Şirkətlərin hazırladığı cədvəllər ilə ("Şirkətlərin cədvəli") müqayisə etdik. Yuxarıda qeyd olunan cədvəllər arasındakı fərqlərin səbəblərini müəyyənləşdirmək məqsədilə şəraitdən asılı olaraq zəruri hesab edilən prosedurları həyata keçirtdik. Əldə etdiyimiz nəticələr aşağıda təqdim olunmuşdur:

Deloitte adı ayrı-ayrılıqda müstəqil hüquqi şəxslərdən ibarət olan İsveçrə qanunvericiliyi əsasında yaradılmış Deloitte Touche Tohmatsu birliyinə aiddir. Deloitte Touche Tohmatsu və ona üzv şirkətlərin hüquqi strukturunun ətraflı təsviri üçün www.deloitte.com/about saytına müraciət edin.

© 2009 Deloitte & Touche MMC. Bütün hüquqlar müdafiə olunub.



Member of Deloitte Touche Tohmatsu

## 31 DEKABR 2008-Cİ İL TARİXİNDƏ BAŞA ÇATAN İL ÜZRƏ
## HÖKUMƏT VƏ HASİLAT ŞİRKƏTLƏRİNİN HESABATLARININ XÜLASƏSİ

### Xarici Hasilat Şirkətləri

| Açıqlaması | Qeydlər | Hökumətin Hesabatı | | | | Xarici Hasilat Şirkətlərinin Hesabatı | | | | Fərq | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Dəyər | | Həcm | | Dəyər | | Həcm | | Dəyər | | Həcm | |
| | | Milyon ABŞ dolları | Milyon AZN | Neft (milyon barel) | Qaz (min kub metr) | Milyon ABŞ dolları | Milyon AZN | Neft (milyon barel) | Qaz (min kub metr) | Milyon ABŞ dolları | Milyon AZN | Neft (milyon barel) | Qaz (min kub metr) |
| Neft hasilatı üzrə pul vəsaiti daxilolmaları | 1 | 47.4 | - | - | - | 35.3 | - | - | - | 12.1 | - | - | - |
| Qaz hasilatı üzrə pul vəsaiti daxilolmaları | 2 | 131.2 | - | - | - | 131.2 | - | - | - | - | - | - | - |
| Xam neft | 3 | - | - | 150.2 | - | - | - | 195.6 | - | - | - | (45.4) | - |
| Qaz | 4 | - | - | - | 2,129,346.0 | - | - | - | 1,984,569.50 | - | - | - | 144,776.50 |
| Bonuslar | 5 | 3.5 | - | - | - | 3.3 | - | - | - | 0.2 | - | - | - |
| Nəqletmə tarifi | 6 | 0.2 | - | - | - | 0.1 | - | - | - | 0.1 | - | - | - |
| Akrhesabı ödənişlər | 7 | 4.4 | - | - | - | 3.5 | - | - | - | 0.9 | - | - | - |
| Mənfəət vergisi | 8 | 2,605.9 | - | - | - | 2,605.8 | - | - | - | 0.1 | - | - | - |

### Yerli Hasilat Şirkətləri

| Açıqlaması | Qeydlər | Hökumətin Hesabatı | | | | Yerli Hasilat Şirkətlərinin Hesabatı | | | | Fərq | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Dəyər | | Həcm | | Dəyər | | Həcm | | Dəyər | | Həcm | |
| | | Milyon ABŞ dolları | Milyon AZN | Neft (milyon barel) | Qaz (min kub metr) | Milyon ABŞ dolları | Milyon AZN | Neft (milyon barel) | Qaz (min kub metr) | Milyon ABŞ dolları | Milyon AZN | Neft (milyon barel) | Qaz (min kub metr) |
| Qaz | 9 | - | - | - | 9,712.0 | - | - | - | 8,870.7 | - | - | - | 841.3 |
| Royalti | 10 | - | 146.6 | - | - | - | 146.6 | - | - | - | - | - | - |
| Mənfəət vergisi | 11 | - | 261.6 | - | - | - | 261.6 | - | - | - | - | - | - |
| Digər vergilər | 12 | - | 437.2 | - | - | - | 437.8 | - | - | - | (0.6) | - | - |

**Xarici Şirkətlərin hasilatında Hökumətin payı**

**Qeyd 1.** ***Xarici Şirkətlərin neft hasilatı həcmində pul şəklində Hökumətin payı***

Aşağıdakı rəqəmlər Hökumətin neft hasilatında xarici Şirkətlərin Hökumətə pul vəsaiti şəklində köçürdükləri payını əks etdirir. Bu xarici Şirkətlər Hökumətin payını Hasilatın Pay Bölgüsü Sazişlərinə ("HPBS") uyğun olaraq məhsul və ya pul şəklində köçürürlər.

| | **Milyon ABŞ dolları** |
|---|---|
| Hökumətin cədvəli | 47.4 |
| Şirkətlərin cədvəli | 35.3 |
| **Fərq** | **12.1** |

Yuxarıdakı fərq Şirkətlərdən biri tərəfindən 2008-ci ilin yanvar ayı üçün Hökumətə ödədiyi mənfəət neftinin hesabatda əks etdirilməməsi səbəbindən yaranmışdır.

Biz bu fərqi Azərbaycan Respublikası Dövlət Neft Fondundan ("ARDNF") Şirkətlər tərəfindən edilmiş ödənişlərin təsnifatını almaqla və əlaqədar Şirkətdən yenilənmiş məlumat əldə etməklə təsdiq etdik.

**Qeyd 2.** ***Xarici Şirkətlərin qaz hasilatı həcmində pul şəklində Hökumətin payı***

Aşağıdakı rəqəmlər Hökumətin qaz hasilatında xarici Şirkətlərin Hökumətə pul vəsaiti şəklində köçürdükləri payını əks etdirir. Hasilat Şirkətləri Hökumətin payını HPBS-ə uyğun olaraq pul şəklində köçürürlər.

| | **Milyon ABŞ dolları** |
|---|---|
| Hökumətin cədvəli | 131.2 |
| Şirkətlərin cədvəli | 131.2 |
| **Fərq** | **0.0** |

**Qeyd 3.** ***Xam neft***

Aşağıdakı rəqəmlər Hökumətin neft hasilatında xarici Şirkətlərin Hökumətə məhsul şəklində köçürdükləri payını əks etdirir:

| | **Milyon barel** |
|---|---|
| Hökumətin cədvəli | 150.2 |
| Şirkətlərin cədvəli | 195.6 |
| **Fərq** | **(45.4)** |

Yuxarıda göstərilən 45.4 milyon barel fərq xarici Şirkətlərdən biri tərəfindən təqdim edilən təsdiq məktubunda çap səhvinin olması nəticəsində yaranmışdır.

Biz bu fərqi Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin ("ABƏŞ") operatoru tərəfindən Hökumətə ötürülmüş neftin məbləği barədə təsnifatı əldə edərək aidiyyatı Şirkətdən alınan birbaşa təsdiq məktubu ilə müqayisə etməklə yoxladıq.

**Qeyd 4.** ***Qaz***

Aşağıda göstərilən qaz həcmi həm təbii, həm də səmt qazını əks etdirir. Səmt qazı HPBS-lərə uyğun olaraq təmənnasız köçürülür, təbii qaz isə xarici Şirkətlərin istehsal həcmində Hökumətin payıdır və Hökumətə məhsul şəklində köçürülür.

| | **Min kub metr** |
|---|---|
| Hökumətin cədvəli | 2,129,346.0 |
| Şirkətlərin cədvəli | 1,984,569.5 |
| **Fərq** | **144,776.5** |

139,346.5 min kub metr həcmində fərq aidiyyatı tərəflərin müxtəlif ölçü vahidlərindən istifadə etmələri nəticəsində meydana çıxmışdır, belə ki, xarici hasilat Şirkətlərindən biri ölçülmüş həcmi Normal kub metrlə ($Nm^3$) 0°C-də, Hökumət isə ölçülmüş həcmi Standard kub metrlə ($Sm^3$) 20°C-də göstərmişdir.

Qalan 5,430.0 min kub metr fərq 4 xarici hasilat Şirkəti tərəfindən təqdim olunan hesabatlarda edilən səhvlər üzündən yaranmışdır. Biz bu fərqi bütün əlaqədar Şirkətlərdən yenilənmiş təsdiqləyici məktublar almaqla təsdiq etdik.

**Xarici Şirkətlərdən Hökumətə digər daxilolmalar**

**Qeyd 5.** ***Bonuslar***

Bonuslar Şirkətlər tərəfindən hasilat hüquqlarının təhvil verilməsi və transfer edilməsinə görə Hökumətə ödənilən haqları əks etdirir. Bu haqlar Hökumətlə olan müvafiq razılaşmalara əsasən neft və qaz yataqlarının işlənməsinin müəyyən mərhələlərində ödənilir.

| | **Milyon ABŞ dolları** |
|---|---|
| Hökumətin cədvəli | 3.5 |
| Şirkətlərin cədvəli | 3.3 |
| **Fərq** | **0.2** |

0.2 milyon ABŞ dolları məbləğində olan fərq xarici hasilat Şirkətlərindən biri tərəfindən 2008-ci il iyun ayında bonusun ödənilməsi, lakin hesabatda göstərilməməsi nəticəsində meydana çıxmışdır. Biz bu fərqi ARDNF-dən Şirkətlər tərəfindən edilmiş bonus ödənişlərinin təfərrüatlı siyahısını əldə edərək əlaqədar Şirkətin bilavasitə təsdiqləyici sənədi ilə üzləşdirməklə təsdiq etdik.

**Qeyd 6.** ***Nəqletmə tarifləri***

Nəqletmə tarifləri ABƏŞ-in iştirakçıları tərəfindən Hökumətə neftin nəqli üçün ödənilən haqları əks etdirir.

| | **Milyon ABŞ dolları** |
|---|---|
| Hökumətin cədvəli | 0.2 |
| Şirkətlərin cədvəli | 0.1 |
| **Fərq** | **0.1** |

Yuxarıdakı fərq Hökumətin öz neft payını nəql etmək üçün ödədiyi 0.1 milyon ABŞ dollarının Hökumətin cədvəlinə daxil edilməsi nəticəsində yaranmışdır. Biz ABƏŞ-dən təsdiq məktubu almaqla Hökumətə nəqletmə tarifləri ilə bağlı edilmiş ümumi ödəniş məbləğini təsdiq etdik.

**Qeyd 7.** ***Akrhesabı ödənişlər***

Akrhesabı ödənişlər kəşfiyyat mərhələsində torpaq/dəniz sahələrinin istifadəsi üçün xarici Şirkətlərin Hökumətə ödədikləri haqları əks etdirir.

| | **Milyon ABŞ dolları** |
|---|---|
| Hökumətin cədvəli | 4.4 |
| Şirkətlərin cədvəli | 3.5 |
| **Fərq** | **0.9** |

Bu fərq xarici Şirkətlərdən birinin Azərbaycan Respublikası ərazisində öz əməliyyatlarını dayandırması səbəbindən MHŞT üzrə hesabat təqdim etməməsi nəticəsində yaranmışdır. Biz layihənin Əməliyyat Şirkətindən bu xarici Şirkət adından akrhesabı ödənişlər üçün 0.9 milyon ABŞ dolları məbləğində vəsaitin ödənilməsi barədə məlumat əldə etməklə fərqi təsdiq etdik.

**Qeyd 8.** ***Mənfəət vergisi***

Mənfəət vergisi Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisinin gəlirləri (vergidən azad edilən gəlirlərdən başqa) və gəlirdən çıxılan xərcləri arasında olan fərqdən tutulan vergidir.

| | **Milyon ABŞ dolları** |
|---|---|
| Hökumətin cədvəli | 2,605.9 |
| Şirkətlərin cədvəli | 2,605.8 |
| **Fərq** | **0.1** |

Bu fərq ona görə meydana gəlmişdir ki, xarici Şirkətlərdən biri 2008-ci ilin dekabr ayı üzrə 0.1 milyon ABŞ dolları həcmində mənfəət vergisi ödənişini hesabatda qeyd etməmişdir. Biz bu fərqi müvafiq xarici şirkətdən yenilənmiş təsdiq məktubu əldə etməklə təsdiq etdik.

**Yerli Şirkətlərin hasilatında Hökumətin payı**

**Qeyd 9.** ***Qaz***

Aşağıda göstərilmiş qaz həcmi həm təbii, həm də səmt qazını əks etdirir. Səmt qazı Hökumətlə olan razılaşmaya əsasən təmənnasız köçürülür. Təbii qaz isə yerli Şirkətlərin istehsal həcmində Hökumətin payıdır və Hökumətə məhsul şəklində köçürülür.

| | **Min kub metr** |
|---|---|
| Hökümətin cədvəli | 9,712.0 |
| Şirkətlərin cədvəli | 8,870.7 |
| **Fərq** | **841.3** |

841.3 min kub metr fərq ona görə meydana gəlmişdir ki, yerli hasilat Şirkətlərindən biri il ərzində Hökumətə təmənnasız köçürdüyü qazın həcmini təqdim etdiyi hesabatda qeyd etməmişdir. Biz fərqi aidiyyatı Şirkətdən əlavə təsdiq məktubu əldə etməklə və Azərbaycan Respublikasının Dövlət Neft Şirkətindən ("ARDNŞ") əldə etdiyimiz izahatlarla təsdiq etdik.

**Yerli Şirkətlərdən Hökumətə digər daxilolmalar**

**Qeyd 10.** ***Royalti***

Royalti (mədən vergisi) Şirkətlər tərəfindən Azərbaycan Respublikasının ərazisində (Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan sektoru daxil olmaqla) yeraltı qatlardan faydalı mineral ehtiyatların hasil olunmasına görə ödənilir.

| | **Milyon AZN** |
|---|---|
| Hökumətin cədvəli | 146.6 |
| Şirkətlərin cədvəli | 146.6 |
| **Fərq** | **0.0** |

**Qeyd 11.** ***Mənfəət vergisi***

Mənfəət vergisi Azərbaycan Respublikası Vergi Məcəlləsinə uyğun olaraq vergi ödəyicisinin gəlirləri (vergidən azad edilən gəlirlərdən başqa) və gəlirdən çıxılan xərcləri arasında olan fərqdən tutulan vergidir.

| | **Milyon AZN** |
|---|---|
| Hökumətin cədvəli | 261.6 |
| Şirkətlərin cədvəli | 261.6 |
| **Fərq** | **0.0** |

**Qeyd 12.** ***Digər vergilər***

Digər vergilər özündə əmlak, torpaq, yol vergisini və əlavə dəyər vergisini ("ƏDV") birləşdirir. MHŞT məqsədləri üçün hesabat edilən digər vergilərə ödəmə mənbəyində tutulan vergi, fiziki şəxslərin gəlir vergisi, sosial sığorta ödənişləri və rüsumlar daxil edilməməlidir.

| | **Milyon AZN** |
|---|---|
| Hökumətin cədvəli | 437.2 |
| Şirkətlərin cədvəli | 437.8 |
| **Fərq** | **(0.6)** |

0.6 milyon AZN məbləğində fərqin əsas səbəbi odur ki, Şirkətlərdən biri təqdim etdiyi hesabatda ödəmə mənbəyində tutulan vergini digər vergilər hissəsinə daxil etmişdir, lakin MHŞT-nin hesabat qaydalarına əsasən Şirkətlərdən ödəmə mənbəyində tutulan verginin göstərilməsi tələb olunmur. Biz əlaqədar Şirkətdən izahat məktubu almaqla bu fərqi təsdiq etdik.

**Rəy**

Şirkətlər tərəfindən edilmiş bütün ödənişlərin/daxilolmaların və Hökumət tərəfindən qəbul edilmiş bütün ödənişlərin/daxilolmaların yoxlamasını apardığımız təqdirdə tələb edilə bilən hər hansı düzəlişlər (əgər olarsa) istisna olmaqla, bu hesabatda əks etdirilmiş yerinə yetirdiyimiz işlərə istinad edərək, rəyimizcə, 31 dekabr 2008-ci il tarixdə bitən il ərzində qəbul olunmuş ödənişlərin/daxilolmaların cədvəli ilə bağlı Komissiyanın Bəyannaməsi yuxarıda qeyd olunan tələblərə uyğun olaraq hazırlanmış və bütün əhəmiyyətli hallarda düzgün əks olunmuşdur.

Bu hesabat AM-i imzalayan tərəflərin istifadəsi üçün nəzərdə tutulmuşdur və digərləri tərəfindən, o cümlədən AM-də qeyd olunmayan məqsədlər üçün istifadə edilməməlidir.



8 iyun 2009-cu il
Bakı şəhəri, Azərbaycan Respublikası

## AZƏRBAYCAN RESPUBLİKASININ MİNERAL EHTİYATLARININ HASİLATI İLƏ MƏŞĞUL OLAN SƏNAYE SAHƏLƏRİNDƏ ŞƏFFAFLIQ TƏŞƏBBÜSÜ ÜZRƏ KOMİSSİYANIN BƏYANNAMƏSİ

31 dekabr 2008-cü il tarixində başa çatan il üzrə Azərbaycan Respublikası Hökumətinin (bundan sonra "Hökumət") Mineral Ehtiyatların Hasilatı Sahəsində fəaliyyət göstərən yerli və xarici Şirkətlərdən (birlikdə "Şirkətlər" adlanacaq) aldığı ödənişlərin/daxilolmaların cədvəli MHŞT üzrə Komissiya, Əlavə 2-də qeyd olunan Azərbaycan Respublikasında Mineral Ehtiyatların Hasilatı Sahəsində çalışan yerli və xarici Şirkətlər və Əlavə 3-də göstərilən qeyri-hökumət təşkilatları arasında 24 noyabr 2004-cü il tarixdə imzalanmış Qarşılıqlı Anlaşma Memorandumuna ("AM") uyğun olaraq hazırlanmışdır.



MHŞT üzrə Komissiyanın Sədri

# ƏLAVƏ 2. MİNERAL EHTİYATLARIN HASİLATI İLƏ MƏŞĞUL OLAN, ANLAŞMA MEMORANDUMUNA ÜZV OLAN VƏ ÜZV OLMAYAN ŞİRKƏTLƏRİN SİYAHISI

**Anlaşma Memorandumuna üzv olan Şirkətlər**

1. BP Eksploreyşn (Kaspian Sea) Limited
2. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti
3. Total E&P Azərbaycan B.V.
4. ITOÇU Oyl Eksploreyşn (Azərbaycan) Inc.
5. Statoyl
6. Turkish Petroleum A.O.
7. Komonvels Neft və Qaz
8. Ekson Azərbaycan Limited
9. KonokoFilips
10. Amerada Hess (AÇG) Limited
11. Devon Enerci Kaspian Korporeyşn
12. Lukoyl Oversiz
13. Şevron
14. Petro-HongKong-Pirsaat Oyl Ltd
15. Salyan Oyl Limited
16. Qarasu Əməliyyat Şirkəti
17. Şell Azərbaycan Eksploreyşn ənd Prodakşn
18. Middle East Petroleum
19. Anşad Petrol BM
20. Şirvan Oyl BM
21. Azgerneft BM
22. İnpeks
23. Binəqədi Neft Əməliyyat Şirkəti
24. Rafi Oyl F.Z.E
25. Naftiran İntertreyd Co. (NİCO) Ltd
26. Abşeron İnvestments Ltd.

**Anlaşma Memorandumuna üzv olmayan Şirkətlər**

1. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti ("ABƏŞ")[1]

[1] ABƏŞ AÇG yataqlarının işlənməsi üzrə əməliyyat şirkətidir. ABƏŞ-in iştirakçıları BP Eksploreyşn (Kaspian Sea) Limited, Ekson Azərbaycan Limited, Statoyl, İnpex, ARDNŞ, Devon Enerci Kaspian Korporeyşn, ITOÇU Oyl Eksploreyşn (Azərbaycan) Inc., Amerada Hess (ACG) Limited, Turkish Petroleum A.O., Unocal Khazar (Şevron Oversiz Petroleum Azərbaycan Limited).

**QHT-lər**

1. "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyi
2. Eko-Renessans
3. Demokratik Təsisatlar və İnsan Hüquqları İctimai Birliyi
4. Avrasiya Hüquqşünaslar Assosiasiyası
5. “Xalça Dünyası” Assosiasiyası (Quba şəhəri)
6. “Azəri–Ellada” İntellektual Mərkəzi
7. Qadın Problemlərinin Tədqiqatları Mərkəzi
8. Qafqaz Beynəlxalq Strateji Araşdırmalar Mərkəzi
9. İqtisadi və Siyasi Araşdırmalar Mərkəzi
10. İqtisadi və Sosial İnkişaf Mərkəzi
11. “Tərəqqi” Sosial İnkişaf İctimai Birliyi
12. Demokratik Seçkilərə Dəstək Mərkəzi İctimai Birliyi
13. Demokratik Dəyərləri Müdafiə Fondu
14. İctimai Maliyə Monitorinq Mərkəzi
15. Elmi-Texniki Tərəqqi və Təhsil Fondu
16. Sosial İqtisadi Araşdırmalar İctimai Birliyi
17. Beynəlxalq Ekoenergetika Akademiyası
18. “Tərəqqi” Sosial Tədqiqatlar Mərkəzi İctimai Birliyi (İmişli)
19. “Jurnalistlər Ekstremal Şəraitdə” İctimai Birliyi
20. Demokratik İslahatlar Uğrunda Cəmiyyət
21. Multimediya İnformasiya və Texnologiya Mərkəzi
22. Siyasi Plüralizm İnstitutu
23. “Region Səs” qəzeti
24. Humanitar Tədqiqatlar Cəmiyyəti
25. Demokratiya Monitoru
26. Mina Qurbanları Cəmiyyəti
27. "Sağlam Həyata Doğru" İctimai Birliyi
28. "Dalğa" Gənclər Hərəkatı
29. Qaçqın və Məcburi Köçkün Qadınların Inkişafı
30. “Dalğa” Ekologiya və Təbiətin Qorunması İctimai Birliyi
31. “Doğma Yurda Qayıdış” İctimai Birliyi
32. Demokratiya və Qadın Təşəbbüsləri İctimai Birliyi
33. Demokratik İnkişaf və İqtisadi Əməkdaşlıq
34. Sosial Strateji Tədqiqatlar və Analitik Araşdırmalar İctimai Birliyi
35. Müasir İnkişaf və Hüquqi Yardım Mərkəzi
36. Regional İnkişaf və İnsan Hüquqları İctimai Birliyi
37. Transnəqliyyatın (nəqliyyatın) Kompleks Problemləri İnstitutu
38. Azad İstehlakçılar Birliyi
39. Azərbaycan İnşaat Assosiasiyası
40. "Proqres" İctimai Birliyi, Gəncə
41. Qadınlar arasında həmrəylik
42. Demokratik İslahatçı Gənclər İctimai Birliyi
43. Yaşıllar Hərəkatı
44. İqtisadi Tədqiqatlar Mərkəzi
45. “Buta” Humanitar Uşaq Fondu
46. Regional Maarifləndirmə
47. “Güzəran” Sosial Araşdırmalar Mərkəzi
48. İslam, Demokratiya və İnsan Haqları Mərkəzi
49. Ekoleks təşkilatı
50. Yerin dostları/Azərbaycan
51. “Ümid” Humanitar və Sosial Dayaq Mərkəzi
52. Gənc Hüquqşünaslar Birliyi

53. Gənclərin İnkişaf Mərkəzi
54. “Xilaskar” İctimai Birliyi
55. “Finance” Şəffaf Büdcə İctimai Birliyi (İmişli)
56. Media İnkişaf Mərkəzi
57. Demokratik İslahatlar Mərkəzi
58. İqtisadi və Sosial Maarifləndirmə Mərkəzi
59. “Əks-səda” Beynəlxalq Jurnalist Tədqiqatları Mərkəzi
60. “Sivilizasiya” Monitorinq və Araşdırmalar İctimai Birliyi
61. Azərbaycan Qadınlarının Siyasi Mədəniyyət Mərkəzi
62. “Ekspert” iqtisadi jurnalı
63. “Bilik” Gəncə
64. “Demokratiyaya Yardım” İctimai Birliyi
65. Vətəndaş Maarifləndirmə İctimai Birliyi
66. Gənc Nəslin Maarifləndirilməsi İctimai Birliyi
67. Vətəndaşların əmək hüquqlarını müdafiə liqası
68. Demokratiya və Qadın Hüquqlarının Himayə Mərkəzi
69. Yevlax Regional İnkişaf Mərkəzi İctimai Birliyi (Yevlax şəhəri)
70. “Ruzgar” Ekoloji İctimai Birliyi
71. “Davamlı inkişaf” Maarifləndirmə Mərkəzi
72. Gənc Jurnalistlərə Yardım Mərkəzi İctimai Birliyi
73. “İnsan Haqları-2003” İctimai Birliyi
74. Jurnalistlərin İqtisadi və Hüquqi Maarifləndirmə Mərkəzi
75. “Qadın Dünyası” İctimai Birliyi
76. Gəncə Uşaq Fondu
77. Konstitusiya Fondu
78. “Ahıl Ziyalılara Qayğı” İctimai Birliyi
79. Demokratik İslahatlar Ugrunda Cəmiyyət
80. “XXI Əsr” Təhsil Mərkəzi İctimai Birliyi
81. Qafqaz Media Tədqiqatlar Mərkəzi
82. “Free Person” İnsan Hüquqlarının Müdafiə Cəmiyyəti
83. İqtisadi Texnologiyalar İnstitutu
84. Demokratik Təşəbbüslərə Dəstək Mərkəzi
85. Neftçilərin Hüquqlarını Müdafiə Komitəsi
86. Demokratik Seçkilərə Yardım Mərkəzi
87. “Azərbaycan Futbolunun İnkişafı Mərkəzi” İctimai Birliyi
88. Demokratiya və Ekoloji Tarazlıq
89. Seçki Tədqiqatları Mərkəzi İctimai Birliyi
90. Neftçilərə Hüquqi Yardım Mərkəzi
91. Tacirlər və İstehsalçılar Birliyi
92. Hüquq Təşəbbüsü Fondu
93. Xəzər Universiteti nəzdində Biznes Araşdırmalar Mərkəzi
94. Neft Araşdırmaları Mərkəzi
95. Qarabağ Köçkünlər Birliyi
96. “Saniyə” Humanitar İnformasiya Analitik Agentliyi
97. “Elektron Seçki” İctimai Birliyi
98. İqtisadi İnnovasiya Mərkəzi
99. Bərabər İmkanlar Mərkəzi
100. “İnam” Plüralizm Mərkəzi
101. Vətəndaş Cəmiyyəti Quruculuğuna Yardım Mərkəzi (Regional QHT, Ağstafa rayonu)
102. Helsinki Vətəndaş Assambleyası Azərbaycan Milli Komitəsi Qərb bölgə nümayəndəliyi (Gəncə)
103. Azərbaycan Sağlam İnkişaf İctimai Birliyi
104. Sosial-İqtisadi Hüquqlar üzrə Təlim-Monitorinq Mərkəzi
105. "ELS" Müstəqil Araşdırmalar Mərkəzi
106. Bakı Akvariumçular Klubu

107. "Qarabağ Əlillərinə Qayğı" Cəmiyyəti
108. Eko-Aləm İctimai Birliyi
109. "İnsan Hüquqları XXI Əsr" Azərbaycan Fondu
110. "Gənclər Klubu" İctimai Birliyi
111. Milli Ekoloji Proqnozlaşdırma Mərkəzi
112. Azad İqtisadiyyat Mərkəzi

**Fiziki şəxslər:**

1. Arzu Soltan
2. Bəkirzadə Şəbnəm
3. Dünya Sakit
4. Əliyev Elmidar
5. Həmidova Hicran
6. Hüseynli Fikrət
7. İbrahimov Zaur
8. İsayev Samir
9. Mövsumov Şamil
10. Musayev Ceyhun
11. Paşayeva Sədaqət
12. Səfərov Afiq
13. Seyidova Süheylə
14. Xəlilov Ruslan